

***Bayram Quliyev***
*tarix üzrə fəlsəfə doktoru*
*Qarabağ Universitetinin baş müəllimi*

# Azərbaycan XIII-XIV əsrlərdə

**Siyasi tarix.** XIII əsrin əvvəllərində bütün Yaxın və Orta Şərqdə, o cümlədən Azərbaycanda istər siyasi, istərsə də sosial-iqtisadi vəziyyət olduqca mürəkkəb idi.

Belə bir şəraitdə Azərbaycan və digər Şərq ölkələri monqol[1] yürüşlərinə məruz qaldı. Çingiz xanın yaratdığı böyük və yaxşı təşkil olunmuş ordu hərbi yürüşlərdə monqollar üçün geniş imkanlar yaradırdı. Monqollar ətraf ölkələrdəki siyasi dağınıqlıqdan da istifadə edərək bir sıra uğurlu yürüşlər həyata keçirdilər. 1211-1220-ci illərdə Şimali Çini, Şərqi Türküstanı ələ keçirən və Xarəzmşah Məhəmmədi məğlub edən monqollar 1221-ci ilin əvvəllərində Cəbə və Subutayın başçılığı ilə Xorasandan və İraqi-Əcəmdən keçərək Azərbaycan hüdudlarına daxil oldular.[2]

XIII əsrin əvvəllərində monqol yürüşləri ərəfəsində Azərbaycanda vahid mərkəzləşmiş dövlət yox idi. Azərbaycanın ərazisində Atabəylər (1136-1225), Şirvanşahlar dövlətləri, eləcə də Marağada Ağsunqurilər hakimliyi (1122-122) və Qaradağda Əhər məlikliyi mövcud idi. Qızıl Arslanın (1186–1191) öldürülməsi ilə Atabəylər dövləti zəifləmiş, Əbu Bəkirin (1191-1210) və Müzəffərəddin Özbəyin (1210-1225) dövründə isə demək olar ki, öz qüdrətini itirmişdi. Beləliklə, XIII əsrin ilk rübündə Azərbaycan ərazisində mövcud olan dövlətlər regionda elə bir təsiredici qüvvəyə malik deyildilər.

Əla əd-Din Ata Məlik əl-Cüveyni (1226-1283) bildirir ki, İraqi-Əcəmdə bir sıra qarətlər törədən monqollar daha sonra[3] Azərbaycanın içərilərinə doğru hərəkət edərək bir sıra şəhərləri ələ keçirdilər. Bundan sonra onlar Təbrizə doğru irəlilədilər. Atabəy Müzəffərəddin Özbək monqollara qarşı çıxmağa cəsarət etmədi, onlara geyim, pul və çox sayda mal-qara verərək sülh bağladı.

---

[1] Cingiz xanın yaratdığı dövlətin və onun mənsub olduğu tayfanın etnik mənsubiyyəti və necə adlanması (monqol, moqol, moğol, tatar, monqol-tatar) haqqında ilkin yazılı qaynaqlarda və elmi ədəbiyyatda müxtəlif fikirlər mövcuddur. Bu məsələ üzərində ətraflı şəkildə dayanmadan qeyd etmək istərdik ki, hal-hazırda onların varisləri öz dövlətlərini "Monqol ulus" adlandırırlar.
[2] İbn əl-Əsir. "əl-kamil fi-t-tarix. əl-cuz-ul-aşir. Beyrut, Dar-ul-kutub-ul-arabiyyə, 1407, s.445.
[3] Ata Məlik Cuveyni. Tarix-e Cahanquşa. Be-təshihe Məhəmməd Qəzvini, cilde əvvəl. Tehran, 1382, s. 116.

Atabəy Özbək yaranmış vəziyyətlə bağlı gürcü çarı IV Georgiyə məktub yazaraq monqollara qarşı ittifaq yaratmağı təklif etdi. Gürcü sarayı bu təklifə etinasız yanaşdı[1]. Monqollar bir sıra şəhərlərdə qırğınlar və qarətlər törətdikdən sonra Xəzər dənizi sahilindəki Muğan düzünə gəldilər. Daha sonra Gürcüstana doğru hərəkət edən monqollar onları da özlərinə tabe etdilər. Belə bir vəziyyətdə Gürcü çarı IV Georgi ittifaq yaratmaq üçün atabəy Özbəyə, Xilat və Cəzirə hakimi əl-Məlik əl-Əşrəfə müraciət etdi. Birgə hərəkət haqqında danışıqlar monqollara məlum oldu və onlar yenidən Gürcüstana soxuldular. Gürcüstanı tutduqdan sonra cənuba qayıdan monqollar ikinci dəfə Təbrizdən xərac alıb Marağa şəhərinə doğru irəlilədilər. Marağa əhalisi müqavimət göstərmək yolunu seçdi. Dörd günlük mühasirədən sonra mancanaqların da köməyi ilə şəhərə daxil olan monqollar burada qırğın və qarətlər törətdilər[2]. 1221-ci ilin yazında Cəbə monqollara qarşı etiraz edənləri cəzalandırmaq üçün Həmədana getdi və əhalini qılıncdan keçirdi. Monqollar Həmədandan Ərdəbilə, oradan da bir daha Təbrizə gəldilər. Onların Təbrizə gəlməsi xəbərini eşidən Atabəy Müzəffərəddin Özbək şəhərdən çıxıb Naxçıvan dağlarına getdiyinə görə, Təbriz hakimi Şəmsəddin Turğayi şəhərin idarəsini öz əlinə almış, onun müdafiə sistemini möhkəmləndirmişdi. Monqollar bu dəfə də əhalidən pul və ipək parça alaraq şəhərə toxunmadılar[3].

Monqollar 1221-ci ilin avqust-sentyabr aylarında Naxçıvana doğru irəlilədilər. Naxçıvanı idarə edən atabəy Müzəffərəddin Özbəyin oğlu Xamuş Subutayın yanına gəldi və itaət etdiyini bildirdi[4]. Azərbaycanın əsas şəhərlərindən biri olan Beyləqana yaxınlaşan monqollar şəhəri mühasirəyə alıb əhalinin istəyinə görə ora elçi göndərdilər, lakin elçi şəhərdə öldürüldü. Odur ki, 1221-ci ilin ramazan ayında şəhərə hücum edən monqollar onu ələ keçirərək qırğınlar törətdilər. Beyləqan şəhərini qarət edən monqollar Gəncəyə gəldilər, şəhər əhalisi xərac verərək dağıntılardan xilas oldu. Daha sonra Cəbə və Subutay Şamaxı şəhərini mühasirəyə aldılar və bu mühasirə üç gün çəkdi. Cəbə və Subutayın ordusu mühasirəni yarmaq üçün pilləkənlərdən və ölmüş heyvan cəsədlərini üst-üstə qoymaqla yaradılan təpəciklərdən istifadə etdilər. Ardından sapandların da köməyi ilə şəhəri ələ keçirən monqollar şəhərdə qırğın və qarətlər törətdilər. Bundan sonra onlar Dərbənd şəhərinə doğru irəlilədilər. Şirvan hökmdarına xəbər göndərən monqollar onlarla razılaşmaq üçün elçi göndərilməsini tələb etdilər. Elçilərin köməyi ilə monqollar Dərbənddən keçərək Xəzərin şimalından Mərkəzi Asiyaya qayıtdılar. Beləliklə, monqolların Azərbaycana yürüşünün ilk mərhələsi 1222-ci ildə sona çatdı. Monqolların birinci yürüşü kəşfiyyat xarakteri daşıyırdı. Bu yürüş Azərbaycanın təsərrüfat həyatına böyük ziyan vurdu. Lakin onlar Azərbaycanda möhkəmlənə bilmədilər.

---

[1] Bünyadov Z.M. Azərbaycan Atabəylər dövləti (1136-1225-ci illər). Bakı, 2007, s.125-125;
[2] İbn əl-Əsir.Əl-Kamil fi-t-tarix, əl-cuz-ul-aşir, s.446.
[3] Yenə orada, s. 445
[4] Ata Məlik Cuveyni. Tarix-e Cahanquşa, cilde əvvəl, s.115.

Çox keçmədən, 1222-1223-cü illərdə başlanan qıpçaq basqınları və gürcü hücumları nəticəsində Azərbaycan əhalisi yeni bəlalarla üzləşdi[1]. 1224-cü ildə Xarəzmşah Məhəmmədin oğlu Qiyasəddin Pirşah Eldənizlərin mülklərindən olan İraqi-Əcəmi tutaraq, atabəy Özbəyə alçaldıcı sülh bağlatdırdı.

Hələ 1221-ci ildə monqollara qarşı uğursuz hücumdan sonra Pirşahın Hindistana qaçmış kiçik qardaşı Cəlaləddin Mənqburnu Xarəzmşahlar dövlətinin monqollar tərəfindən məhv edilməsində günahkar saydığı Abbasi xəlifəsi ən-Nasiri cəzalandırmaq üçün 1225-ci ildə Bağdada yürüş etdi[2]. Xəlifə qoşunlarını məğlubiyyətə uğradan Cəlaləddin həmin ilin may ayında Azərbaycan ərazisinə daxil oldu. Ciddi bir müqavimət görmədən Marağa şəhərini, yeddi günlük mühasirədən sonra isə Təbriz şəhərini ələ keçirdi[3]. Təbrizi tərk edən atabəy Özbək əvvəl Gəncəyə, sonra isə Naxçıvandakı Əlincə qalasına sığındı və orada da öldü.

Beləliklə, daxili ziddiyyətlər içərisində boğulan və xarici qüvvələrin zərbələri nəticəsində zəif düşmüş Atabəylər dövləti süqut etdi. Şəmsəddin Eldənizin övladlarına tabe olan ərazilər Azərbaycanda, Arranda, Şirvanda və Gürcüstanda ağalıq edən Cəlaləddin Mənqburnunun əlinə keçdi. Ən-Nəsəvinin yazdığına görə, nə Cəlaləddinə xidmət etmək istəyində olan Özbəyin oğlu Xamuşun, nə də dövlətin bəzi əmirlərinin "əvvəlki sülaləni bərpa etmək" cəhdləri heç bir nəticə vermədi.

Cəlaləddin 1226-1227-ci illərdə Tiflisə iki yürüş təşkil etdi və gürcülər üzərində qələbə qazandı[4]. 1227-ci ildə Cəlaləddinin vəziri Şərəf əl-Mülk iqta hüququnda onun tabeliyində olan Beyləqan və Muğan torpaqlarından əlavə şirvanşahların Guştəsfi vilayətini də ələ keçirdi. Şirvanşah III Fəribürz yüksək məbləğdə xərac vermək şərti ilə öz hakimiyyətini saxladı[5]. Ağsunqurilərin Marağa hakimliyinə isə 1227-ci ildə son qoyuldu.

Bütün Azərbaycanı (Şirvan istisna olunmaqla) ələ keçirən Cəlaləddinə qarşı baş verən çıxışların tez bir zamanda yatırılması ölkənin mülk sahiblərinin Cəlaləddinə itaət göstərməsi ilə nəticələndi. Lakin onun uğurlarını özləri üçün təhlükə hesab edən Kiçik Asiyanın, Şamın və Şimali Mesopotamiyanın kiçik xanədanları Cəlaləddinə qarşı ittifaq yaratdılar. 1230-cu ilin avqust ayının 10-da, Yassı-Çəməndə (Ərzincan yaxınlığında) baş verən həlledici döyüşdə Xarəzmşah ordusu darmadağın edildi[6]. Xilatda sığınacaq tapan Cəlaləddin qoşununun qalıqları ilə Azərbaycana qayıtdı. Digər tərəfdən monqolların Azərbaycana yeni hücuma başlaması xəbəri alındı. Bir sıra

[1] Azərbaycan tarixi. Yeddi clddə, II cild, Bakı, 2007, s.453.
[2]Ал-Камил фи-т-тарих («Полный свод истории»). Избранные отрывки. Перевод с арабского языка, примечания и комментарии П.Г.Булгакова. Дополнения к переводу, примечаниям и комментариям, введение и указатели Ш.С.Камолиддина. Ташкент – Цюрих, 2005, с.385.
[3] Yenə orada, c.386-388.
[4] Yenə orada, 392-394.
[5] Bünyadov Z.M. Azərbaycan Atabəylər dövləti, s.187.
[6] Ан-Насави Шихаб ад-Дин Мухаммад. Жизнеописание султана Джалал ад-Дина Манкбурны / Пер. З.М. Буниятова. Баку, 1973, с.255-256; Джувейни. Чингиз-хан. История завоевателя мира / Пер.: Е.Е. Харитонова. М., 2004, с.319.

salnaməçilərin (İbn əl-Əsir, ən-Nəsəvi, Fəzlullah Rəşidəddin) yazdığına görə, Cəlaləddin monqollara qarşı birləşmək üçün ətraf ərazilərə, hətta keçmiş düşmənlərinə məktub yazdı[1]. Lakin o, monqollara qarşı ittifaq yarada bilmədi. Digər tərəfdən Azərbaycanın bir çox bölgələrində, xüsusilə, Gəncədə və başqa yerlərdə Cəlaləddinə qarşı yeni üsyanlar baş verdi. Gəncədəki üsyana usta Bəndər başçılıq edirdi. Üsyanı danışıqlar yolu ilə yatırmaq cəhdləri nəticə vermədi. Şəhərə daxil olan və qiyamı amansızlıqla yatıran Cəlaləddin Bəndəri və əsas üsyan rəhbərlərini edam etdirdi.

Azərbaycanda dayaqlarını itirən Cəlaləddin monqollara qarşı müqavimət göstərə bilmədi və Azərbaycanı tərk etdi. O, 1230-cu ilin avqustunda Məyyafariqin əyalətinin Əynbər kəndi yaxınlığında qətlə yetirildi[2]. Onun köhnə rəqibi, Xilat hakimi əl-Məlik əl-Əşrəfin uzaqgörənliklə söylədiyi, "Cəlaləddin Mənqburnunun məhvi tatarların islam torpaqlarına girməsi deməkdir. İndi bizimlə "bu yəcuc-məcuclar" (yəni, monqollar) arasında divar ola biləcək Xarəzmşah kimisi yoxdur",-sözləri tezliklə öz təsdiqini tapdı. Monqollar bütün ətraf yerləri ələ keçirdilər. Azərbaycanda monqol hökmranlığı dövrü başlandı.

1231-ci ildə Çormoğon noyonun başçılığı ilə monqol qoşunları yenidən Azərbaycan torpaqlarına soxuldular[3]. Marağanı zəbt edərək şəhər əhalisi üzərinə ağır vergi qoyan monqollar Təbrizi mühasirəyə aldılar. Aparılan danışıqlar nəticəsində Təbriz əhalisi xərac ödəməli oldu. Təbrizin bir çox tanınmış sənətkarları Monqol imperiyasının paytaxtı Qaraqoruma göndərildi.

Monqollar 1235-ci ildə Gəncəni mühasirəyə aldılar. Əhali təslim olmadı və öz doğma şəhərlərini yeddi gün qəhrəmancasına müdafiə etdilər. Buna baxmayaraq monqollar şəhəri ələ keçirdilər. Monqollar şəhəri darmadağın etdilər və əhalisinin əksəriyyətini qılıncdan keçirdilər. Bu dağıntıdan sonra Gəncə dörd il xaraba qaldı və yalnız 1239-cu ildə onun bərpasına cəhd göstərildi.

Monqollar Şəmkirə yaxınlaşanda şəhər hakimi Bəhram monqollara təslim olmaq istəsə də əhali güclü müqavimət göstərdi. Çox çətinliklə şəhərə daxil olan monqollar onu yandırdılar, əhaliyə divan tutdular. Daha sonra monqollar Azərbaycanın digər qala və şəhərlərini də tutdular. Əhalinin ciddi müqavimətinə və qəhrəmanlığına baxmayaraq Tovuz, Bakı və s. şəhərlər də ələ keçirildi. 1239-cu ildə Dərbəndi tutmaqla monqollar bütün Azərbaycan ərazisinin işğalını başa çatdırdılar. Onlar, ilk yürüşdən fərqli olaraq, bu dəfə ölkəni tərk etmədilər.

1239-1256 illərdə Azərbaycan ərazisi Böyük Monqol xaqanının təyin etdiyi canişinlər tərəfindən idarə olundu. Monqol sərkərdələrindən biri Arqun ağa zəbt olunmuş ərazilərə canişin təyin olundu. Azərbaycanın münbit torpaqları monqol

---

[1] Bünyadov Z.M. Azərbaycan Atabəylər dövləti.Bakı, 2007, s.147.
[2] Yenə orada, s.149.
[3] İbn əl-Əsir.Əl-Kamil fi-t-tarix. Bakı, 1959, s.202.

əyanları arasında bölüşdürüldü. Yerli əyanlar monqol canişinlərinin vassalına çevrildilər.

Böyük Monqol xaqanlığının Ön Asiya, Cənubi Qafqaz və Kiçik Asiyanı ələ keçirməsinə baxmayaraq, XIII əsrin ortalarında həmin ərazilərdə bəzi hakimlər hələ də öz mülklərini qoruyub saxlaya bilmişdilər. 1253-cü ildə Böyük Monqol xaqanı Münke Ön Asiyada işğalları davam etdirmək üçün böyük ordu göndərməyi qərara aldı[1]. Yürüşə onun qardaşı Hülakü xan başçılıq edirdi. O, 19 oktyabr 1253-cü ildə Qaraqorumdan qərbə doğru hərəkət etdi. 1256-cı ildə Hülakünün qoşunları Amu-Dərya çayını keçdi. Hülakü xan 1256-1257-ci illərdə bütün İran və Azərbaycan özünə tabe etdi. 1256-cı ildə ismaililərin Ələmut qalası da ələ keçirildi[2]. Hülakü xan bu münasibətlə ətraf ərazilərə məktub (Fəthnamə) göndərdi.

1258-ci ilin fevral ayında Hülakü xan və onun sərkərdəsi Baqu bir həmlə ilə Bağdadı aldılar və son xəlifə Müstəsim Billah öldürüldü. Beləliklə, 500 ildən artıq hökm sürən Abbasilər xilafətinə son qoyuldu. Hülakü xan zəbt etdiyi ərazilərdə beşinci monqol ulusu – Hülakülər dövlətini yaratdı. 1265-cı ildə Hülakü xan (1256-1265) “elxan” (elin, ölkənin xanı) titulunu qəbul etdi və onun qurduğu dövlət həm də “Elxanilər dövləti” kimi tanındı. Amu-Dəryadan Aralıq dənizinə və Dərbənddən Fars körfəzinədək bütün torpaqlar Hülakü xanın hakimiyyəti altına keçdi. Şirvanşah isə yalnız vassal kimi öz taxt-tacını qoruyub saxlaya bildi. Onun hüquqları olduqca məhdudlaşdırılmış, bütün fəaliyyəti elxani canişinləri tərəfindən ciddi nəzarət altına alınmışdı.

Hülakülər dövləti Azərbaycanda 1256-1357-ci illərdə mövcud olmuşdur. Azərbaycan, geniş əraziləri əhatə edən Hülakülər dövlətinin mərkəzi vilayətinə, Marağa və Təbriz şəhərləri dövlətin paytaxt şəhərlərinə, Qarabağ və Muğan isə Elxani xanlarının yaylaq və qışlaqlarına çevrildi. Sonrakı Hülakü hökmdarları özlərini monqol deyil, Azərbaycan hökmdarları kimi aparırdılar. Qızıl Ordunun da iddia etdiyi şimal bölgələrinin əhəmiyyəti nəzərə alınaraq şahzadə Yuşmut Arrana hakimi təyin olundu.

1258-ci il Bağdad şəhərini fəth edib Ərəb Xilafətinə son verdikdən sonra Azərbaycana qayıdan Hülakü xan burada özünü “Bütün Yaxın və Orta Şərqin hökmdarı” elan etdi və Münke xaqana məktub göndərərək növbəti hədəfinin Suriya və Misir olduğunu bildirdi. 1259-cu ildə Elxani ordusu Hələb, Şam, Həmas və Malatya şəhərlərini tutdu. 1260-cı ildə Hülakü xan Qızıl Ordu xanı Bərkə xan ilə savaşaraq onu məğlub etdi və Dərbənd şəhərinə qədər irəlilədi.

Hülakü xan elm və təhsilə önəm verər və alimlərin məsləhətlərinə qulaq asardı. Azərbaycanın böyük alimi Nəsrəddin Tusi onun əsas məsləhətçisi olmaqla bərabər, xanın elçisi kimi Bağdada yürüş zamanı xəlifə ilə danışıqlarda iştirak etmişdi. Nəsrəddin Tusi özünün ən dəyərli əsərlərini onun zamanında yazmış və Azərbaycan

---

[1] Ata Məlik Cuveyni. Tarix-e Cahanquşa. Be-təshih: Məhəmməd Qəzvini. cilde sevvom, Tehran, 1382, s.90.
[2] Yenə orada, s.114.

mədəniyyəti üçün önəmli olan Marağa rəsədxanası 1259-cu ildə onun maliyyə yardımı ilə inşa edilmişdi.

Atasının ölümündən sonra taxta keçən Abaqa xan (1265-1282) Hülakü xanın zamanında verilmiş bütün qanunların keçərli olduğunu bildirdi. Abaqanın taxta çıxdığını öyrənən Qızıl Ordu xanı Bərkə yeni hökmdarın gənc və təcrübəsizliyindən istifadə edərək şahzadə Noqayın başçılığı ilə Azərbaycana qoşun göndərdi. 1265-ci ilin dekabrında baş vermiş döyüşdə Elxanilər məğlub oldu və Bərkənin ordusu Kür çayına qədər irəlilədi, lakin çayı keçə bilməyib Tiflisə doğru yönəldi. Bərkənin ölümü ilə toqquşmalara bir qədər ara verilsə də 1269-1270-ci illərdə Qızıl Ordu ilə Hülakülər arasında bir sıra toqquşmalar oldu. Baş verən döyüşlərdə Abaqa xan qalib gəldi. Abaqa 1282-ci ildə qəflətən öldü. Ondan iki həftə sonra isə oğlu Şahzadə Münkə Teymura sui-qəsd təşkil edildi[1].

Abaqa xanın ölümündən sonra Əhməd xan (1282-1284) hakimiyyətə gəldi. Taxta çıxan Əhməd xan hərbiçilərə çoxlu bəxşişlər verməklə Elxanilər dövlətinin xəzinəsini boşaltdı və iqtisadiyyatına ağır zərbə vurdu.

Əhməd xandan sonra Hülakü taxtına çıxan Arqun xan (1284-1291) 12 avqust 1284-cü ildə keçirilən tacqoyma mərasimindən sonra bütün ölkəyə xəbər göndərərək bildirdi ki, Əhməd Təkudar zamanında qəbul olunmuş qanunlar və verilmiş fərmanlar keçərsizdir. Baş vəziri və idarəçilikdə böyük rolu olan Sahibi-Divan Şəmsəddin Cüveyninin öldürülməsi də dövlət daxilində ziddiyyətlərin artmasına, saray çəkişmələrinin dərinləşməsinə səbəb oldu. 1291-ci ildə Arranda xəstələnən Arqun xan həmin ilin mart ayında vəfat etdi.

Arqun xan öldükdən sonra hakimiyyətə kimin gəlməsini müəyyən etmək üçün şahzadələr Qazan, Baydu və Keyxatuya dəvət göndərildi. Dövlətin əsas əmirlərinin dəstəyini alan Keyxatu xan 23 iyul 1291-ci ildə taxta çıxdı. Keyxatu xan (1291-1294) 18 aprel 1294-cü il tarixli qurultayda Çində istifadə olunan "Çao" ("Çav") adlı kağız pulun ölkədə tədavülə buraxılmasını əmr etdi. Vəzir və əmirlərin etirazına baxmayaraq "Çao" 18 sentyabr 1294-cü ildə tədavülə buraxıldı. Tacirlər bu pulla ticarət etməməyi üstün tutdular, qarət və soyğunçuluq genişləndi. Şikayətlərin çoxaldığını görən Keyxatu xan kağız pulu tədavüldən çıxarmağa məcbur oldu.

Keyxatu xanın bu yanlış addımı hakimiyyətə iddiasında olan Baydu xanı (1294-1295) cəsarətləndirdi və əmirlərin bir çoxu öz fikirlərini dəyişərək onun tərəfinə keçdilər. Taxta çıxan Baydu xanla Qazan xan arasında bir anlaşma imzalandı. Anlaşmaya görə İraqi-Ərəb, Azərbaycan, Diyarbəkir, Gürcüstan və Rum Baydu xana verilirdi. İraqı-Əcəm, Xorasan, Xuzistan, Luristan isə Qazan xanın nəzarətinə keçirdi. Lakin Baydu xan bu anlaşmaya riayət etmədi. Hakimiyyəti ələ keçirmək uğrunda Qazan xanla Baydu xan qarşı-qarşıya gəldi. Savaşda qalib gəlmək üçün müsəlman

---

[1] Həmdullah Mustouvfi Qəzvini. Tarix-e qozide. Tehran: Çapxane-ye sephar, 1342, s. 593

əhalini öz tərəfinə çəkmək istəyən Qazan xan Əmir Novruzun təşəbbüsü ilə Xorasana getdi və 1294-cü ildə burada İslamı qəbul etdi. Baydu xan isə 1295-ci ilin sentyabr ayında Təbrizdə öldürüldü.

İslam dünyasında da nüfuzlu bir şəxsiyyətə çevrilən Qazan xan (1295-1304) hakimiyyətə gəldiyi dövrdə ölkədə vəziyyət olduqca gərgin idi. Qarətçilik, dağılmış iqtisadiyyat fonunda xəzinə də boşalmışdı. Onun zamanında monqolların əksəriyyəti İslamı qəbul etmiş, bütxanalar dağıdılmış, yerində məscidlər tikilmişdi.

Qazan xanın hakimiyyəti dövründə, 1299-1303-cü illərdə Misirlə üç dəfə hərbi toqquşma baş verdi və hər üçündə də Elxani ordusu məğlubiyyətə uğradı. Daha sonra ağır xəstəlik keçirən Qazan xan 17 may 1304-cü ildə vəfat etdi.

Qardaşının ölüm xəbərini alan Məhəmməd Xudabəndə Olcaytu (1304-1316) Xorasandan Ucana gəldi və 15 iyul 1304-cü ildə taxta oturdu. O, tacqoyma mərasimindən sonra çıxardığı bir yarlıqla bəyan etdi ki, Qazan xanın dövründə icra olunmuş islahatlar dəyişilməz olaraq qalacaq[1]. Sultaniyə şəhərinin əsasını qoymuş Məhəmməd Xudabəndə Olcaytu xanın zamanında nisbi sabitlik olmuş, orduda nizam-intizam güclənmiş, bir sıra vilayətlər abadlaşmışdı. Məhəmməd Xudabəndə Olcaytu 12 dekabr 1316-cı ildə ov edərkən bədbəxt bir hadisə nəticəsində həyatını itirdi[2].

Atasının ölümündən sonra gənc yaşda taxta çıxan Əbu Səid xanın (1316-1335) dövründə Hülakülər dövləti getdikcə zəifləməyə başladı.

XIV əsrin 30-cu illərindən etibarən Elxanilər dövləti dərin böhran keçirirdi. Əbu Səidin dövlət işlərini müstəqil idarə edə bilməməsi bu prosesə təkan verirdi. Dövlətin tənəzzülünə təsir edən digər səbəblər isə ölkədəki feodal qruplar arasında çəkişmələr, monqollara qarşı yerlərdə baş verən azadlıq hərəkatı, ölkəyə edilən xarici hücumlarla bağlı idi. Əbu Səidin hakimiyyətinin ilk dövründə dövlətin idarəsi Əmir Çoban ailəsinin əlində cəmlənmişdi və bu hal digər iri feodalların mərkəzi hakimiyyətə qarşı narazılığına gətirib çıxarırdı.

Bu zaman ölkə xarici həmlələrə də məruz qaldı. Şimaldan Qızıl Ordu xanları, Diyarbəkir istiqamətindən isə Misir və Şam qoşunları hücuma keçdilər. Elxanilər öz qüvvələrini səfərbər edib əsas diqqəti Qızıl Orduya qarşı yönəltdilər. Əmir Çobanın başçılığı ilə Hülakü qoşunu onları geri oturda bildi. Misir və Şam qoşunları da məğlubiyyətə uğradıldı.

Xorasanda və Gürcüstanda 1319-1320-ci illərdə baş verən üsyanlar yatırıldı. Üsyançılara qarşı döyüşdə Əbu Səid şəxsən göstərdiyi qəhrəmanlığa görə “Bahadır” ləqəbini aldı. 1335-ci ildə Qızıl Ordu xanı Özbək (1312-1341) Dərbənddən Azərbaycana hücum etdi. Əbu Səid ona qarşı güclü qoşun hissələri göndərdi və özü də

---

[1] Абру Х. Зейл-и джами ат-таварих-и Рашиди Критический текст, перевод с персидского, введение, комментарий и указатели: Э.Р. Талышханова. Баку, 2007, s. 28.

[2] Əl-Əhəri əl-Qütbi Əbu Bəkr. Tarix-e Şeyx Uveys / Tərcümə və müqəddimə M. D. Kazımov və V. Z . Piriyev. Bakı, 1984, s. 27.

Qarabağa gəldi. Lakin o, feodal ara çəkişmələrinin qurbanı oldu və burada zəhərlənərək öldürüldü.

Əbu Səidi əvəz edən Arpa xan (1335-1336) Özbək xan üzərində qələbə qazandı və onu ölkədən qova bildi. Cəmi altı ay taxtda oturan Arpa xan (1335-1336) həbsxanadakı əmirləri azad etdi. Sultan Olcaytu və Sultan Əbu Səid dövründə icra olunan qanunlara məhəl qoymadı və Qazan xanın yarlıqları əsasında fəaliyyət göstərdi. Bir sıra salnaməçilərin yazdığına görə, ağıllı bir padşah olan Arpa xan bütün var-dövlətini əsgərlərə paylayırdı. Buna baxmayaraq, ölkənin daxili vəziyyəti gərgin olaraq qalmaqda idi. Hakimiyyət uğrunda mübarizə daha da şiddətləndi.

1336-1340-cı illərdə ölkədə bir neçə padşah bir-birini əvəz etdi. Qoşa və çoxpadşahlılıq meydana çıxdı. Bağdadda Əli Padşah adlı bir nəfər Baydunun nəslindən Musanı xan elan etdi və onun legitimliyini tanıtmaq üçün Arpa xanla mübarizəyə başladı. Arpa xan Sultaniyədə ələ keçirildi və Musa xan (1336) taxta oturdu. Lakin onun hakimiyyəti cəmi dörd ay çəkdi. Daha sonra hakimiyyətə gətirilən Məhəmməd xanın (1337-1339) hakimiyyəti dövründə əmirləri arasında çəkişmələr daha da geniş vüsət aldı[1]. Dövlətin ərazisi XIV əsrin 40-cı illərinin əvvəllərində on bir hissəyə bölündü. "Hülakülər səltənətini müdafiə etmək bayrağı" altında gedən bu mübarizədə Cəlairi, Çobani, Xorasan feodalları daha fəal idilər.

Bəhs edilən dövrdə Azərbaycanda və ətraf ərazilərdə Çobanilər faktiki olaraq hakimiyyətə yiyələnmişdilər. Çobanilər uzun müddət dövlətin baş əmiri olmuş Əmir Çobanın davamçıları idilər. 1338-ci ildə mövcud vəziyyətdən bəhrələnən Şeyx Həsən Çobani (Kiçik Həsən) rəqibi Cəlairi Şeyx Həsənə (Böyük Həsən) qarşı çıxdı, onu Təbrizdən qovaraq Satıbəy xatunu (1339-1340) "padşah" elan edib ölkəni onun adından idarə etməyə başladı.

Çobanilərin Azərbaycanda ağalığı 1357-ci ilə qədər davam etdi. Həmin dövrdə Şeyx Həsən Çobani və qardaşı Məlik Əşrəf Hülakü şahzadələri Süleyman xanı (1340-1344), Ənuşirəvan xanı (1344-1355) və Həsən xanı (1356-1357) padşah elan edərək ölkəni onların adından idarə etdilər. Lakin Çobani əmirləri müstəqil dövlət qura bilmədilər: adlarına sikkə kəsdirmədilər, xütbə oxutdurmadılar, qonşu dövlətlər tərəfindən müstəqil dövlət kimi tanınmadılar.

Çobani Məlik Əşrəfin (1344-1357) ağalığı dövründə zülm və haqsızlıq baş alıb gedirdi. Hətta, 1347-ci ildə vəba, qıtlıq və qarətin hökm sürdüyü Təbrizin əhalisi Azərbaycanın müxtəlif bölgələrinə köçüb getmişdilər. İlkin yazılı qaynaqların məlumatına görə, Məlik Əşrəf ölkədə istədiyi əmiri vəzifəsindən çıxarar, yerinə başqasını təyin edərdi. O xoşuna gəlməyən birinin üzərinə şər ataraq onun varidatını

[1] Əbu Bəkr əl-Qütbi əl-Əhəri. Tarix-e Şeyx Uveys / Tərcümə və müqəddimə M. D. Kazımov və V. Z . Piriyevindir. Bakı: "Elm" nəşriyyatı, 1984, s. 32-42.

ələ keçirər, özünü isə öldürərdi[1]. Bu zaman Təbriz əhalisinin köç etdiyi ərazilərdən biri də Qızıl Ordu dövləti idi. Qızıl Orduya gedənlərdən biri də Qazi Məhiəddin Bərdəi idi. Buradakı Bərkə Saray məscidində xütbə oxuyan Qazi Məhiəddin Bərdəi cümə xütbələrindən birində Canı bəyin də olduğunu gördükdə Məlik Əşrəfin Təbrizdə etdiyi zülmləri ona anlatdı. Bundan təsirlənən Qızıl Ordu xanı on min süvari ilə 1357-ci ildə Təbrizə hücum etdi və Məlik Əşrəf öldürüldü. Bununla da Çobani əmirlərinin "Hülakülər səltənətini mühafizə etmək uğrundakı mübarizəsi" başa çatdı. Canı bəy oğlu Bərdi bəyi Təbrizdə taxta oturdub geri qayıtdı. Lakin iki aydan sonra Bərdi bəy atasının qəfil ölüm xəbərini alıb Qızıl Orduya döndü. Vəziyyətdən bəhrələnən Çobanilər Əxicuğun (1357-1358) başçılığı ilə hakimiyyətə yiyələnməyə cəhd göstərsələr də buna nail ola bilmədilər.

Canı bəy Qızıl Orduya döndükdən sonra Azərbaycan 1358-ci ildə İraqı-Ərəb hakimi Sultan Üveys Cəlairi tərəfindən tutuldu. Şirvanşah Kavus da onun hakimiyyətini qəbul etmişdi. Bunu Şeyx Üveysin adından Şirvanda kəsilmiş pullar təsdiq edir. Şirvanşahlar bir neçə dəfə Cəlairi ağalığına qarşı çıxmağa cəhd etsələr də 1368-1369-cu illərdə Şeyx Üveysin ordusu bu cəhdlərin qarşısını aldı. Beləliklə, Şirvanşahlar vergi verməklə Cəlairilərin ağalığını yenidən qəbul etmiş oldular.[2]

Beləliklə, ilk monqol yürüşlərindən fərqli olaraq üçüncü yürüşdən sonra Mərkəzi Azərbaycan olan Hülakülər dövlətinin yaranması ölkə iqtisadiyyatına müəyyən dərəcədə müsbət təsir göstərdi, vergilər nizama salındı, paytaxt elan edilən Marağa və Təbriz kimi iri şəhərlər mədəniyyət mərkəzlərinə çevrildi. Qazan xanın həyata keçirdiyi islahatlar ilk monqol yürüşləri zamanı yaranmış mənfi halları qismən aradan qaldırdı. Elxanilər xarici siyasətdə ciddi uğur qazana bilməsələr də ölkə ərazisində nisbi sabitlik yarada bildilər. Bununla bərabər Hülakü – Qızıl Ordu savaşları, əsasən, Azərbaycanın şimalında cərəyan etdiyi üçün bu ərazilərdə bir çox dağıntılara səbəb oldu.

**Sosial-İqtisadi münasibətlər.** Monqolların Azərbaycana ilk yürüşləri ölkənin oturaq əhalisinin təsərrüfat həyatına böyük ziyan vurdu. "Örüş" siyasətinə üstünlük verən monqollar əkin sahələrinin çox hissəsini otlaqlara, yaylaq və qışlaqlara çevirmiş, süni suvarma sistemlərini isə dağıtmışdılar. Bu da əhalinin gəlirlərinin azalmasına səbəb oldu. 1220-1340-cı illər arasındakı dövrdə Cənubi Azərbaycandan (Naxçıvan bölgəsi də daxil olmaqla) dövlət xəzinəsinə daxil olan gəlir 20 milyon dinardan 2 milyon 160 min dinara, Arrandan və Muğandan yığılan dövlət gəliri 3 milyon dinardan 303 minə, Şirvandan götürülən gəlir isə 1 milyondan 113 min dinara düşmüşdü. Beləliklə, Azərbaycanın dövlət gəliri 1220-ci ildəki 25 milyon dinardan XIV əsrin 40-cı illərində 2 milyon 694 min dinara enərək on dəfəyədək azalmışdı.

---

[1] Абру Х. Зайл-и джами ат-таварих-и Рашиди Критический текст, перевод с персидского, введение, комментарий и указатели: Э.Р. Талышханова. Баку, 2007, s. 184-186.
[2] Əbu Bəkr əl-Qütbi əl-Əhəri. Tarix-e Şeyx Uveys Tarix-e Şeyx Uveys, s.56-58.

Xüsusilə, ilk yürüş zamanı müqavimət göstərən Azərbaycan şəhərlərində qırğınların və qarətlərin törədilməsi əhalinin azalması və infrastrukturun zədələnməsi ilə nəticələndi.

Monqol ağalığı dövründə Azərbaycanda təxminən 40 adda vergi toplanırdı. Münke xaqanın dövründə 1254-cü il siyahıya alınması ilə əhalinin vergi verən təbəqəsi müəyyənləşdirilmişdi. XIII əsrin 30-40-cı illərində əsas vergi xərac olub, təqribən məhsulun 70%-ni təşkil edirdi. Monqol ordusunun saxlanılması üçün tağar (40 kq buğda) adlanan hərbi vergi müəyyən edilmişdi. Sənətkarlar və tacirlər bazara çıxarılan məhsula görə tamğa vergisi və başqa vilayətlərə apardıqları mala görə isə bac adlı gömrük haqqı ödəyirdilər[1].

Elxanilər dövləti yarandıqdan sonra Azərbaycanın da daxil olduğu bütün ölkə ərazisində vəziyyət qismən dəyişməyə başladı. Bu dövrdə sosial-iqtisadi baxımdan müsbət dönüş Qazan xanın islahatları ilə bağlıdır. Qazan xan qarışıqlığı aradan qaldırmaq və ölkənin əvvəlki nüfuzunu bərpa etmək üçün Fəzlullah Rəşidəddinin təşəbbüsü ilə islahatlar keçirmək qərarına gəldi. Bu məqsədlə, Gürcüstan istisna olunmaqla (onlar xristian olduqları üçün üzərində "Mahmud" adı yazılan sikkəyə toxunmaları istənilmirdi), ölkənin hər yerində istifadə ediləcək eyni ağırlıqda sikkələr zərb edildi. Qazan xanın bir digər yarlığı ilə əsas çəki vahidi olaraq "Təbriz giləsi" götürüldü. Bundan başqa vergi işləri də nizama salındı, onların vaxtı, miqdarı dəqiqləşdirildi, binalardan, karvansaralardan alınan tabqur, heyvan və əşyalardan alınan digər vergilər də ləğv olundu. Hər yerdə əhalinin görə biləcəyi şəkildə daş və taxta lövhələr qoyulurdu, onların üzərində verginin ödənilmə vaxtı, növü və miqdarı yazılırdı. Məhkəmə sahəsində də xeyli dəyişikliklər aparıldı, artıq qazılar da dini hüquq çərçivəsində mülki məsələlərə baxa bilərdilər. Lakin, cinayət məsələləri hələ də əvvəlki yarğı yasası ilə tənzimlənirdi. Bundan başqa Qazan xan bir yerdən digər yerə səyahət edən elçilərin xalqdan mal, heyvan və ya ərzaq almalarını qadağan etdi və əvəzində üç fərsəxdən bir "yam" adlanan rabitə dayanacaqları təsis etdi.

Elxanilər dövründə sülalə torpaqları incu, hökmdarın özünə məxsus torpaqlar isə xass - incu adlanırdı. Geniş müsadirələr hesabına dövlətə məxsus divan və sülalə - incu torpaqları xeyli çoxalmışdı. XIII əsrin 90-cı illərində divan torpaqlarının ayrı-ayrı məmurlara və əyanlara iqta kimi bağışlanması geniş şəkil almışdı. Bu dövrdə yerli əyanlara məxsus mülk və dini idarələrə məxsus vəqf torpaqlarının azalması Elxanı hökmdarı Qazan xan İslamı dövlət dini kimi qəbul edənədək davam etmişdi[2]. Onun həyata keçirdiyi torpaq islahatına qədər böyük sərkərdələr istisna olunmaqla, digər əsgərlərə maaş, iqta və ya taqar verilmirdi. 1303-cü ildə verilən yarlıqda əsgərlərə

---

[1] Daha ətraflı baxın: Ализаде. А. Социально-экономическая и политическая история Азербайджана XIII - XIV вв. Баку, 2012, s. 143-179; 206-277.

[2] Daha ətraflı baxın: Piriyev V.Z. Azərbaycan XIII-XIV əsrlərdə. Bakı, 2003, s. 197-207

yaylaq və qışlaq kimi istifadə edə biləcəkləri iqta torpaqlar verildi. Hər şəhərə ayrılan iqta min əsgəri doyduracaq qədər gəlir verən torpaqdan ibarət olmalı idi.

XIII-XIV əsrlərdə Azərbaycanın Təbriz, Marağa, Naxçıvan və Bakı kimi iri şəhərləri monqol yürüşlərindən qismən kənarda qaldıqları üçün sosial-iqtisadi və mədəni cəhətdən digər şəhərlərdən daha qənaətbəxş vəziyyətdə idilər. Hülakülərin ilk paytaxtı olan Marağa sadəcə elm mərkəzi olmayıb, eləcə də ticarət mərkəzinə də çevrilmişdi. Şərq-qərb ticarət yolunun üzərində yerləşən Təbriz şəhərinin əhalisi, əsasən, sənətkarlıq və ticarətlə məşğul olurdu. Təbriz eyni zamanda elm və təhsil mərkəzlərindən biri idi və "Rəbi-Rəşidi" məhəlləsi burada yerləşirdi. Monqolların yürüşü zamanı zərər görmüş Həmədan və Qəzvin şəhərləri Hülakülərin hakimiyyətə gəlməsi ilə yenidən inkişaf etməyə başladı. Lakin Azərbaycanın şimal şəhərləri haqqında bunu demək mümkün deyil, çünki bu ərazilərdə Elxani – Qızıl Ordu savaşları getdiyinə görə şəhərlər öncəki vəziyyətlərinə qayıda bilmədilər. Şimali Azərbaycan şəhərləri içərisində dağıntılardan qismən kənarda qalan Bakı şəhəri az da olsa sosial-iqtisadi cəhətdən inkişaf etmişdi. Su qıtlığının olmasına baxmayaraq müxtəlif meyvələrin becərildiyi Bakı eyni zamanda neft çıxarılması və ixracı ilə də məşhur idi.[1] XIV əsrin ilk onilliklərindən etibarən bir sıra Azərbaycan şəhərləri sosial-iqtisadi baxımdan bir əsr öncəki vəziyyətlərinə çatmış, sənətkarlıq və ticarət inkişaf yoluna düşmüşdü.

**Mədəniyyət.** İlk monqol yürüşləri dövründə bir sıra dağıntılara və bəzi şəhərlərin tamamilə yox olmasına baxmayaraq, Azərbaycanda elm və mədəniyyət inkişaf edirdi. Bunun əsas səbəbi Təbriz, Naxçıvan, Bakı kimi iri şəhərlərin dağıntılardan qismən xilas olması, yerli ənənələrin mövcudluğu, bəzi Elxani hökmdarlarının elmə və mədəniyyətə xüsusi diqqət yetirməsi idi.

İslam ənənəsinə uyğun olaraq təhsil sistemi iki pilləli idi. Birinci pillədə dərslər, əsasən, məscidlərdə və məktəblərdə aparılırdı. Bu zaman şagirdlər yazıb-oxumağı öyrənir, ilkin biliklərə yiyələnirdilər ki, bunlar da əsasən, dini məzmunlu idi. İkinci pillə hesab olunan yüksək təhsil müəssisələri isə aşağıdakılardan ibarət idi: a) qari-xanalar – burada hafizlər yetişdirilirdi; b) mədrəsələr – ümumi ali təhsil verilirdi; c) rəsədxanalar – başda astronomiya olmaqla texniki və təbiət elmləri üzrə ixtisaslaşmışdı; ç) darüş-şəfalar - əsasən tibb təhsili üzrə ixtisaslaşmışdı; d) xanəgahlar – dini təhsil üzrə ixtisaslaşmışdı; e) xüsusi müəllim evləri – burada kimyagərlik, rəməl kimi gizli elmlər öyrədilirdi.

Şərqin ən böyük təhsil ocaqlarından biri olan və Təbriz şəhərində yerləşən Rəbi-Rəşidi məhəlləsindəki "Rəşidiyyə" mədrəsəsi universitet hesab oluna bilərdi və burada yeddi min tələbəyə beş yüz müəllim, başda tibb olmaqla, bir çox fənləri tədris edirdilər.

[1] Yenə orada, 236-242.

Hülakülər dövründə Azərbaycanda texniki elmlər humanitar elmlərə nisbətən daha erkən formalaşdı ki, bu da böyük alim Nəsirəddin Tusinin fəaliyyətləri ilə bağlıdır. Həm 1259-cu ildə əsası qoyulmuş Marağa rəsədxanası, həm də daha sonradan Təbrizdə inşa edilən digər rəsədxana əsas elm və təhsil ocaqlarından sayılırdı. Nəsrəddin Tusi Evkilidin "paralellər aksiomu" nəzəriyyəsi əsasında "Təhriri-Öqlidis" adlı əsər yazmış və bu əsər Avropa həndəsə elminin sonrakı dövrlərdə inkişaf etməsində əhəmiyyətli rol oynamışdı. Nəsrəddin Tusinin kəşfləri nəticəsində triqonometriya elmində bir çox məsələlər antik qaydalara nəzərən daha sadə üsulla öz həllini tapmış oldu.

Azərbaycanda tibb elmi monqolların gəlməsi nəticəsində Çin və Uyğur tibbinin yeniliklərinin tətbiqi ilə sürətlə inkişaf etdi. Azərbaycanda o dövrün xəstəxanaları – darüş-şəfalar və apteklər – daru-xanalar fəaliyyət göstərirdi. Cərrahiyyə əməliyyatlarında dağlama kimi üsullardan istifadə olunur, sınıq, çıxıq, kəsik kimi əməliyyatlar icra olunurdu.

Humanitar sahədə tarix elmi öz inkişafına görə xüsusi yerdə dayanırdı. Bu zaman Ata Məlik Cüveyninin "Tarix-i cahanquşa", Abdullah Bəydavi əl-Şirazinin "Nizam-üt-təvarix", Fəzlullah Rəşidəddinin "Cəm-i ət-təvarix" və Həmdullah Mustovfi Qəzvini "Tarix-e-qozide" əsərləri yazılmışdı. Coğrafiya elmində isə Zeynəddin Qəzvininin "Əcaib-əl-məxluqat" və Həmdullah Qəzvininin "Nüzhət-əl-qülub" əsərləri xüsusi əhəmiyyətə malik idi.

XIII-XIV əsrlərdə ədəbiyyatda əvvəlki dövrlərdən fərqli olaraq Azərbaycan türkcəsində yazılmış əsərlər üstünlük təşkil etməyə başladı. Həsənoğlu, Nəsir Bakuvi, Əhvədi Marağayi kimi ədiblər müxtəlif məzmunlu əsərlər yazmışdılar. XIII-XIV əsrlərdə Azərbaycan musiqisinin görkəmli nümayəndələri olan Səfiəddin Urməvi, Rizvanşah Təbrizi, Əbdülqadir əl-Marağayi, Qütbəddin Şirvani, Əli Cüzcani, Qiyasəddin Qayibi və digərləri ətraf ölkələrdə də məşhur idilər. Səfiəddin Urməvi özünün "Kitab-ül-ədvar fi-l-musiqa" əsərini yazmaqla Azərbaycanda musiqi tarixində ilk musiqi nəzəriyyəsinə aid kitab da yazmış oldu.

XIII əsrin 30-cu illərinin sonlarından etibarən dağıdılan Azərbaycan şəhərlərinin bərpasına başlanıldı. Elxanilər dövründə isə iki yeni şəhər – Sultaniyə və Mahmudabad şəhərləri inşa olunmuşdu. Şəhərlərdəki memarlıq abidələri, əsasən, dini-xatirə və müdafiə xarakterli tikililərdən ibarət idi. Abşerondakı Mərdəkan, Nardaran, Ramana qalaları, Təbrizdə Elxanlı vəziri Tacəddin Əlişahın tikdirdiyi "Əlişah məscidi" (sonralar "Ərk qalası" kimi tanınmışdır), Naxçıvandakı Gülüstan türbəsi, 1305-1313-cü illərdə Sultaniyədə tikilmiş Olcaytu Xudabəndə türbəsi, Bərdə türbəsi (1322), Qarabağlar kəndindəki memarlıq kompleksində Qoşaminarəni birləşdirən Baştağ türbəsi, yenidən bərpa olunan və əlavələr edilən Xudavəng monastırı, Bayıl qəsri XIII-XIV əsrlərin çox qiymətli memarlıq abidələridir.